Dövlət Məşğulluq Agentliyinin
İdarə Heyətinin
2020-ci il_______ _________ tarixli
___________ nömrəli Qərarı ilə təsdiq edilmişdir.

# Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdirilməsi ilə bağlı Təlimat-Prosedur

## 1. Ümumi müddəalar

**1.1.** Bu Təlimat-Prosedur "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nın icrasını təmin etmək məqsədilə prosedurları müəyyən edir.

**1.2.** Qanunun 1.1.21-ci maddəsinə əsasən sosial iş yeri – işaxtaranlar və işsiz şəxslərin məşğulluğunu təmin etmək və işəgötürənləri həvəsləndirmək məqsədi ilə işəgötürənin vakansiya bankına təqdim olunmuş boş iş yeri üzrə işçinin əməkhaqqının bir hissəsinin həmin Qanunla müəyyən edilmiş qaydada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilən iş yeridir.

**1.3.** Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilir.

**1.4.** Dövlət və bələdiyyəyə məxsus hüquqi şəxslər sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi üçün müraciət edə bilməzlər.

## 2. Təlimat-Prosedurda istifadə olunan ifadələr

**2.1.** Təlimat-Prosedurun mətnində bir sıra ifadələr bundan sonra aşağıdakı mənaları bildirir:

**2.1.1.** Nazirlik - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

**2.1.2.** Agentlik - Dövlət Məşğulluq Agentliyi

**2.1.3.** Mərkəz – Ərazi Məşğulluq Mərkəzi ("DOST Mərkəz"i fəaliyyət göstərdiyi ərazidə həmçinin "DOST Mərkəz"i);

**2.1.4.** MAS - Nazirliyin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin (MEİS) "Məşğulluq" altsistemi;

**2.1.5.** İşaxtaran - Qanuna əsasən işaxtaran kimi qeydiyyata alınmış şəxs;

**2.1.6.** İşsiz – Qanuna əsasən işsiz kimi qeydiyyata alınmış şəxs;

**2.1.7.** İşəgötürən - tam fəaliyyət qabiliyyəti olub işçilərlə əmək müqaviləsi bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs;

**2.1.8.** Müqavilə - sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsinə dair Mərkəzlə işəgötürən arasında müqavilə.

## 3. İşəgötürənlərin qeydiyyatı prosesi

**3.1.** Bu Təlimat-Prosedurun 1.4-cü bəndində göstərilənlər istisna olmaqla, aşağıdakı tələblərə cavab verən hər bir işəgötürən sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi üçün müraciət edə bilər:

**3.1.1.** son 1 (bir) ildə fəaliyyətdə olan;

**3.1.2.** Agentlik tərəfindən əmək bazarının təhlili əsasında müəyyən edilən prioritet iqtisadi sahələr və peşələr (ixtisaslar) (*3 nömrəli əlavə*) üzrə vakansiyası olan və ya yeni vakansiya yaradan.

**3.2.** Hər bir işəgötürənin təqdim elədiyi sosial iş yeri üzrə vakant yerlər işəgötürənin işçilərinin ümumi sayının 20 faizindən, lakin hər 1 (bir) işəgötürən üzrə 10 (on) sosial iş yerindən çox ola bilməz.

**3.3.** Sosial iş yerləri üzrə əməkhaqqının məbləği işəgötürənin eyni vəzifə (peşə) üzrə digər iş yerlərindəki əməkhaqqının məbləğinin 10 (on) faizindən çox fərqlənə bilməz.

**3.4.** İşəgötürən "Sosial iş yerlərində işçilərin əməkhaqlarının maliyyələşdirilməsi üçün Ərizə"ni MAS-da dolduraraq təsdiq edir. Ərizənin doldurulması MAS–da mümkün olmadıqda sözügedən Ərizə Agentliyin müəyyən etdiyi qaydada alternativ elektron resurs və ya kağız daşıyıcılardan istifadə edilməklə qəbul edilir. (*1 nömrəli əlavə*)

**3.5.** Müraciət qeydiyyata alındıqdan sonra Agentliyin Aparatının Sosial tərəfdaşlarla iş departamenti tərəfindən 10 (on) iş günü ərzində həmin işəgötürənin müəyyən edilən tələblərə uyğunluğu araşdırılır (*4 nömrəli əlavə*).

**3.6.** İşəgötürənin tələblərə uyğunluğu Agentliyin Aparatının Sosial tərəfdaşlarla iş departamentinin təklifi əsasında Agentiyin İdarə Heyətinin Qərarı ilə təsdiq edilir.

**3.7.** İşəgötürənin tələblərə uyğunluğu barədə ona elektron bildiriş göndərilir.

## 4. Sosial iş yerlərinə göndərişin verilməsi qaydası

**4.1.** İşaxtaran və işsiz şəxslərə sosial iş yerlərinə göndəriş verilməsi zamanı aşağıdakı amillər nəzərə alınır:

- təhsili;
- peşəsi (ixtisası);
- təcrübəsi (əmək stajı);
- digər bilik, bacarıq və səriştəsi.

**4.2.** Sosial iş yerləri üzrə seçim aparılarkən aşağıdakı şəxslərə üstünlük verilir:

- 1(bir) ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslərə;
- əlilliyi olan şəxslərə;
- gənclərə;
- cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə.

**4.3.** Bu bölmədə göstərilənlərlə yanaşı bu Təlimat-Prosedura *5 nömrəli əlavə*dəki meyarlar da nəzərə alınır.

**4.4.** Müqavilə müddətində əmək müqaviləsinə işçinin təşəbbüsü ilə xitam verildiyi halda həmin şəxslə 1 (bir) il müddətində təkrar əmək müqaviləsi bağlanıla bilməz.

## 5. Sosial iş yeri üzrə işəgötürənlə müqavilənin bağlanılması

**5.1.** Bu Təlimat-Prosedurun 3.5-ci bəndində müəyyən edilmiş araşdırmanın nəticələrinə əsasən işəgötürən tələblərə uyğun olduqda işəgötürənin faktiki fəaliyyət göstərdiyi inzibati ərazi vahidləri üzrə Ərazi Məşğulluq Mərkəzi və işəgötürən arasında müqavilə (*2 nömrəli əlavə*) imzalanır.

**5.2.** İşəgötürən vakant sosial iş yerlərinə göndəriş verilmiş şəxslərlə 2 (iki) ildən az olmayan müddətə əmək müqaviləsi bağlayır.

**5.3.** İşəgötürən və Mərkəz tərəfindən göndəriş verilmiş şəxs arasında əmək müqaviləsinin bağlanılmasına dair bildirişin MEİS-in “Əmək müqaviləsi bildirişi” altsistemində qeydiyyata alınması ilə işaxtaran və işsiz şəxsin işə qəbulu təsdiqlənir.

**5.4.** Sosial iş yerinə qəbul olunmuş işçi ilə işəgötürən arasında əmək müqaviləsi bağlanılarkən Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olmaqla 3 (üç) aydan artıq olmamaq şərtilə sınaq müddəti müəyyən edilə bilər. Sınaq müddətində özünü doğrultmamış işçinin əmək müqaviləsinə işəgötürənin əsaslandırılmış əmri ilə xitam verilə bilər. Bu halda Agentlik tərəfindən həmin iş yeri üzrə yeni göndəriş rəsmiləşdirilir. Yeni işçi təyin edilən zaman həmin iş yeri üzrə əvvəlki işçinin əməkhaqqının maliyyələşdirilməsi dövrü nəzərə alınır.

**5.5.** Əməkhaqqının işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilən hissəsinin məbləği Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən əvvəlki il üçün müəyyən olunmuş ölkə üzrə orta aylıq nominal əməkhaqqından çox olmamaq şərtilə işəgötürənin ştat vahidi üzrə nəzərdə tutulmuş əməkhaqqının və əməyin ödənişi fondundan hesablanan məcburi dövlət sosial sığorta haqqı, işsizlikdən sığorta haqqı və istehsalatda bədbəxt hadisələr, peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqı əlavə edilməklə xərclərin 50 faizini təşkil edir.

**5.6.** Əmək müqaviləsi ilə işə götürülmüş işçilərin əməkhaqqının müəyyən edilmiş hissəsi 3 (üç) aydan az və 12 (on iki) aydan çox olmayan müddətdə Agentlik tərəfindən maliyyələşdirilir.

**5.7.** Müqavilə müddətində (sınaq müddəti müəyyən edildiyi halda sınaq müddəti istisna olmaqla) işçinin əmək müqaviləsinə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin “a” və “ç” bəndləri istisna olmaqla işəgötürənin təşəbbüsü ilə xitam verilərsə, həmin iş yeri üzrə yeni göndəriş rəsmiləşdirilmir.

## 6. Sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsi proseduru

**6.1.** Sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsinə dair Mərkəzlə işəgötürən arasında Müqavilə bağlandıqdan sonra 1 (bir) iş günü ərzində Mərkəz Müqavilə üzrə tələb olunan vəsaitin ayrılması barədə Agentliyin rəhbərliyinə müraciət edir.

**6.2.** Agentliyin Aparatının Maliyyə departamenti Agentliyin Aparatının Sosial tərəfdaşlara iş departamentinin rəyi əsasında sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitin rüblük əsaslarla Mərkəzə ayrılmasını təmin edir.

**6.3.** Mərkəz işçinin əmək müqaviləsinin qüvvədə olmasını MEİS-in müvafiq altsistemi vasitəsilə yoxladıqdan sonra əməkhaqqının işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilən hissəsini hər ay üçün növbəti ayın 5-dək Müqavilədə nəzərdə tutulmuş müddətdə və məbləğdə Agentlik tərəfindən açılmış vəsaitlər əsasında işəgötürənin hesabına köçürür.

**6.4.** İşəgötürən tərəfindən işsizlikdən sığorta vəsaiti hesabına artıq ödənilmiş əməkhaqları aşkar edildiyi halda, həmin vəsaitin geri qaytarılması işəgötürəndən tələb olunur və bu vəsait geri qaytarılmadıqda həmin işəgötürənlə bağlanılmış Müqaviləyə xitam verilir.

## 7. Sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsinə dair monitorinqin aparılması

**7.1.** İşəgötürənlərin sosial iş yerləri üzrə işə qəbul etdikləri işçilər və onlara ödənilən əməkhaqları barədə məlumatlar Mərkəz tərəfindən MEİS-in “Əmək müqaviləsi bildirişi” altsistemi üzərindən yoxlanılır və məcburi dövlət sosial sığortası üzrə rüblük hesabatla üzləşdirilir.

**7.2.** İşəgötürənlərin sosial iş yerləri üzrə işə qəbul etdikləri işçilər və onlara ödənilən əməkhaqqı barədə monitorinq aparılması üçün əlavə tədbirlər İşəgötürən və Mərkəz arasında bağlanmış müqavilədə qeyd olunmaqla tərəflərin razılığı əsasında həyata keçirilir.

*1 nömrəli əlavə*

**Sosial iş yerlərində işçilərin əməkhaqqının maliyyələşdirilməsi üçün**

**ƏRİZƏ**

| **İşəgötürən barədə məlumat** | |
|---|---|
| vergi ödəyicisinin eyniləşdirmə nömrəsi | |
| işəgötürənin adı | |
| təşkilati hüquqi forması | |
| iqtisadi fəaliyyət növü | |
| ünvanı (şəhər/rayon, küçə) | |
| elektron poçt ünvanı (olduğu halda) | |
| telefonu | |
| **Vakansiya üzrə məlumat** | |
| iş yeri, vəzifə (peşə) | |
| iş yerinin faktiki ünvanı | |
| əmək stajı tələbi | |
| əməkhaqqının məbləği (manatla) | |
| tələb olunan təhsil səviyyəsi:<br>- orta təhsil<br>- peşə təhsili<br>- orta-ixtisas təhsili<br>- ali təhsil | |
| tələb olunan peşə (ixtisas) | |
| iş yeri üzrə əmək funksiyası | |
| peşə (ixtisas) üzrə zəruri bilik, bacarıq və səriştələr | |
| digər bilik, bacarıq və səriştələr | |

*2 nömrəli əlavə*

**Sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsinə dair**

**MÜQAVİLƏ №_____**

**“____”_________20___- il __________ şəhər (rayon)**

________________________________________________________________________

(Dövlət Məşğulluq Agentliyinin __________________Məşğulluq Mərkəzi)

________________________________________________________________________

(İşəgötürən)

aşağıdakılar barədə müqavilə bağladılar:

**1. Müqavilənin məqsədi**

1.1. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 25.1-ci və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 19.0.2.6-cı maddələrinə müvafiq olaraq sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi.

**2.Tərəflərin hüquqları və vəzifələri**

2.1. Tərəflərin hüquqları aşağıdakılardır:

2.1.1. Mərkəz:

2.1.1.1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) “Məşğulluq” altsistemində Agentlik və ya “DOST” mərkəzləri tərəfindən qeydiyyata alınmış işaxtaran və işsiz şəxslərə əməkhaqqının maliyyələşdirilməsi nəzərdə tutulan iş yerlərinə göndəriş verilməsini təşkil etmək;

2.1.1.2. sosial iş yerlərinə göndəriş verilmiş işçilər və onlara ödənilən əməkhaqqı barədə məlumatları MEİS-in “Əmək müqaviləsi bildirişi” altsistemi üzərindən araşdırmaq;

2.1.1.3. işəgötürən tərəfindən işsizlikdən sığorta vəsaiti hesabına artıq ödənilmiş əməkhaqları aşkar edildiyi halda, həmin vəsaitin geri qaytarılmasını işəgötürəndən tələb etmək;

2.1.2. İşəgötürən:

2.1.2.1. sosial iş yerləri üzrə maliyyələşmənin vaxtında ödənilməsini Mərkəzdən tələb etmək;

2.1.2.2. sosial iş yerləri üzrə işə qəbul olunmuş işçilərə 3 (üç) aydan çox olmayan müddətə sınaq müddəti təyin etmək;

2.1.2.3. sınaq müddəti ərzində özünü doğrultmayan işçinin əmək müqaviləsinə əsaslandırılmış əmrlə xitam vermək.

2.2. Tərəflərin vəzifələri aşağıdakılardır:

2.2.1. Mərkəz:

2.2.1.1. əməkhaqqının maliyyələşdirilməsi nəzərdə tutulan sosial iş yerləri üzrə hər ayın sonu üçün növbəti ayın 5-dən gec olmayaraq hər ay üzrə hesablanmış vəsaiti işəgötürənin hesabına köçürmək;

2.2.1.2. işəgötürənin müraciəti əsasında sosial iş yerlərinə işə cəlb olunmuş işçilərin peşə və bacarıqlarının artırılmasına kömək göstərmək;

2.2.2. İşəgötürən:

2.2.2.1. sosial iş yerlərinə işə cəlb olunmuş işçilərlə ən azı 2 (iki) il müddətinə əmək müqaviləsi bağlamaq;

2.2.2.2. işçilərə əmək müqaviləsində göstərilən müddətdə və məbləğdə hər ay üçün əməkhaqqı ödəmək

2.2.2.3. işçilərin sağlamlığının və əməyinin mühafizəsinin təmin olunması üçün onu əməyin mühafizəsi, təhlükəsizlik texnikası və sanitariya-gigiyena norma və qaydalarına cavab verən iş yeri və əmək şəraiti ilə təmin etmək;

2.2.2.4. əmək funksiyasının icrası üçün zəruri olan avadanlıqlar, materiallar, alətlər, texnikalar vaxtında təqdim etməklə işçilərin istehsalat (xidmət) prosesində yaxından iştirakını təmin etmək;

2.2.2.5. işə cəlb etdikləri işçilərin müvafiq peşə biliklərinə yiyələnməsinə və səriştələrin mənimsənilməsinə şərait yaratmaq, bunun üçün təcrübəli mütəxəssislərdən birini təlim ustası təyin etmək.

2.3. Mərkəz işəgötürəndən işə cəlb olunan işçilərin əmək haqlarının ödənilməsi barədə hər ay üçün təsdiqedici bank sənədini tələb edə bilər.

## 3. Qarşısıalınmaz qüvvə

3.1. Bu Müqavilənin icrasına qarşısıalınmaz qüvvə təsir göstərərsə, tərəflər bu Müqavilə ilə üzərinə düşən öhdəliklərdən hər hansı biri ilə bağlı icra edə bilməzsə, onda o, qarşısıalınmaz qüvvənin davam etdiyi müddət ərzində belə öhdəliyin icrasından azad edilir, bir şərtlə ki, bu tərəf qarşısıalınmaz qüvvənin təsiri baş verdiyi andan sonra 3 (üç) gündən gec olmayaraq digər tərəfi qarşısıalınmaz qüvvənin baş verməsi barədə yazılı şəkildə xəbərdar etsin.

3.2. Qarşısıalınmaz qüvvənin təsirinə Agentlik və İşəgötürən tərəfindən nəzarət edilməyən, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizootiyalar, karantinlər, embarqolar, dövlət və hökumət qərarları və bu kimi digər hallar aid edilir.

3.3. İşəgötürənin bu Müqavilə ilə müəyyən edilmiş öhdəlikləri bu Müqavilənin 3.2-ci bəndində nəzərdə tutulan qarşısıalınmaz qüvvənin təsiri baş verdikdə həmin hal aradan qaldırıldıqdan sonra davam etdirilir.

## 4. Tərəflərin məsuliyyəti

4.1. Tərəflər Müqavilənin bəndləri ilə müəyyən edilmiş vəzifələri icra etmədikdə mülki məsuliyyət daşıyırlar.

4.2. Tərəflər bu Müqavilədən irəli gələn mübahisələri danışıqlar yolu ilə həll etməyə çalışacaqlar.

4.3. Bu Müqavilədən irəli gələn mübahisələr danışıqlar yolu ilə həll edilmədikdə məhkəmə qaydasında həll edilir.

4.4. Bu Müqaviləyə dəyişikliklərin və əlavələrin edilməsi tərəflərin razılığı ilə həyata keçirilir.

4.5. Müqavilə digər tərəfə yazılı bildiriş verilmədən birtərəfli pozula bilməz.

| Mərkəz | İşəgötürən |
|---|---|
| ___________________________ | ___________________________ |
| (Mərkəzin hüquqi ünvanı və VÖEN-i) | (idarənin, müəssisənin, təşkilatın adı, VÖEN-i və hesab nömrəsi) |
| ___________________________ | ___________________________ |
| (adı, soyadı, atasının adı, vəzifəsi və imzası) | (adı, soyadı, atasının adı, vəzifəsi və imzası) |
| “_____” ___________ 20___ il | “_____” ___________ 20___ il |
| M.Y. | M.Y. |

*3 nömrəli əlavə*

**Prioritet iqtisadi sahələr və peşələr (ixtisaslar)**

(qiymətləndirmə əmsalları ilə birgə)

| Prioritet iqtisadi sahələr | Prioritet iqtisadi sahələr üzrə qiymətləndirmə əmsalı | Prioritet iqtisadi sahələrə aid peşələr (ixtisaslar) | Prioritet iqtisadi sahələrə aid peşələr (ixtisaslar) üzrə qiymətləndirmə əmsalı |
|---|---|---|---|
| **Turizm** | 10 | Barmen | 6 |
| | | Barmen-bufetçi | 7 |
| | | Bələdçi | 8 |
| | | Dequstator | 3 |
| **Kənd təsərrüfatı və kənd təsərrüfatı məhsullarının emalı** | 9 | Aqronom | 3 |
| | | Baramaçı | 9 |
| | | Baytar | 7 |
| | | İlməçi | 8 |
| | | Kombayn sürən | 9 |
| | | Quşçu | 9 |
| | | Tarlaçı | 8 |
| | | Tərəvəzçi | 9 |
| | | Traktorçu | 9 |
| | | Traktorçu-maşinist | 7 |
| | | Suvarma sistemləri mühəndisi | 9 |
| | | Kənd təsərrüfatı texnikaları üzrə mütəxəssis | 9 |
| **Telekommunikasiya** | 8 | Poçtalyon | 9 |
| | | Radiomexanik | 5 |
| | | Telefonçu | 9 |
| | | Teleqrafçı | 9 |
| **Logistika** | 7 | Şturman bort | 8 |
| | | Bortbələdçi | 7 |
| | | Boyaçı | 8 |
| | | Bosman | 7 |
| | | Dispetçer | 9 |
| | | Matros | 8 |
| | | Maşinist | 9 |
| **Yüngül sənaye** | 6 | Qənnadçı | 5 |
| | | Xalçaçı | 8 |
| | | Ayaqqabı istehsalat ustası | 8 |
| **Tikinti** | 5 | Bənna | 10 |
| | | Betonçu | 9 |
| | | Boru xətti çəkən | 3 |

| | | | |
|---|---|---|---|
| | | Boyaçı | 8 |
| | | Briqadir | 8 |
| | | Döşəməçi | 5 |
| | | Dülgər | 9 |
| | | İnşaatçı | 9 |
| | | İzolyasiyaçı | 7 |
| | | Memar | 4 |
| | | Mişarçı | 9 |
| | | Montajçı | 8 |
| | | Parket ustası | 9 |
| **Xidmət** | 4 | Dəri aşılayan | 8 |
| | | Ayaqqabı ustası | 10 |
| | | Bərbər | 8 |
| | | Cildçi | 9 |
| | | Çörək ustası | 9 |
| | | Dəstələyən | 10 |
| | | Dizayner | 5 |
| | | Əyirici | 6 |
| | | Fotoqraf | 8 |
| | | Frezerçi | 8 |
| | | Kabelçi | 7 |
| | | Kitabxanaçı | 8 |
| | | Koordinator | 8 |
| | | Liftçi | 8 |
| | | Maşın yuyan | 10 |
| | | Mebel quraşdırıcısı | 8 |
| | | Mətbəəçi | 7 |
| | | Ocaqçı | 5 |
| | | Ofisiant | 5 |
| | | Reklam agenti | 6 |
| | | Reklam işçisi | 5 |
| | | Rentgen-texnik | 9 |
| | | Sanitar | 6 |
| | | Styuart | 8 |
| | | Tabelçi | 8 |
| | | Təchizatçı | 5 |
| | | Tədarükçü | 5 |
| | | Təkər düzəldən | 9 |
| | | Tərbiyəçi | 6 |
| | | Tərcüməçi | 10 |
| | | Ticarətçi | 5 |
| | | Tikişçi | 9 |
| | | Tokar | 8 |
| | | Tornaçı | 8 |
| | | Tornaçı-oymaçı | 8 |
| | | Toxucu | 8 |
| | | Xilasedici | 7 |

| | | | |
|---|---|---|---|
| | | Yağ dəyişmə ustası | 8 |
| | | Yükləyən | 10 |
| **Ağır sənaye və maşınqayırma** | 3 | Aparatçı | 6 |
| | | Buruqquraşdıran | 6 |
| | | Dəmirçi | 8 |
| | | Avadanlığın sazlayıcısı | 7 |
| | | Dəzgahçı | 8 |
| | | Dezinfektor | 9 |
| | | Elektrik | 10 |
| | | Elektromexanik | 10 |
| | | Elektromontajçı | 10 |
| | | Elektromontyor | 10 |
| | | Laborant | 9 |
| | | Metal bişirən | 9 |
| **Birdən çox prioritet sahə üzrə** | 10 | Administrator | 8 |
| | | Agent | 6 |
| | | Satınalma mütəxəssisi | 7 |
| | | Anbardar | 9 |
| | | Armaturçu | 10 |
| | | Aşpaz | 8 |
| | | Bağban | 9 |
| | | Baxıcı | 7 |
| | | Broker | 5 |
| | | Çağrı mərkəzi operatoru | 6 |
| | | Çeşidləyici | 8 |
| | | Çilingər | 10 |
| | | Çilingər-elektrik | 10 |
| | | Dayə | 9 |
| | | Dərzi | 10 |
| | | Ekspert | 5 |
| | | Elektrik montyoru | 8 |
| | | Fəhlə | 5 |
| | | Gözətçi | 5 |
| | | İstehsalatda xətt operatoru | 9 |
| | | İstehsalatda avadanlıq ustası | 9 |
| | | İnspektor | 3 |
| | | İnzibatçı | 8 |
| | | İqtisadçı | 2 |
| | | Kargüzar | 5 |
| | | Komendant | 10 |
| | | Konfransların planlaşdırıcıları | 5 |
| | | Kuryer | 5 |
| | | Mexanizator | 7 |

| | | | |
|---|---|---|---|
| | | Mexanik | 8 |
| | | Montyor | 10 |
| | | Motorçu | 9 |
| | | Mühafizəçi | 8 |
| | | Mühasib | 5 |
| | | Mühəndis | 9 |
| | | Nəzarətçi | 5 |
| | | Növbətçi | 5 |
| | | Operator | 9 |
| | | Proqramçı | 9 |
| | | Satış nümayəndəsi | 4 |
| | | Qapıçı | 5 |
| | | Qarderobçu | 5 |
| | | Qarovulçu | 5 |
| | | Qaynaqçı | 10 |
| | | Qazmaçı | 8 |
| | | Qəbulçu - resepsion | 4 |
| | | Qəlibçi | 10 |
| | | Qeydiyyatçı | 5 |
| | | Qiymətləndirici | 6 |

*4 nömrəli əlavə*

**İşəgötürənlərin uyğunluğunun müəyyən edilməsi üzrə meyarlar**

(qiymətləndirmə əmsalları ilə birgə)

| Sıra N-si | Meyarlar | Qiymətləndirmə əmsalı |
|---|---|---|
| 1 | **Telefon nömrəsi** | |
| | Var | **10** |
| | Yoxdur | **0** |
| 2 | **E-mail** | |
| | Var | **10** |
| | Yoxdur | **0** |
| 3 | **İnternet saytı** | |
| | Var | **10** |
| | Yoxdur | **0** |
| 4 | **Qeydiyyat tarixi (il)** | |
| | 1-3 | **5** |
| | 3-6 | **8** |
| | 6+ | **10** |
| 5 | **İqtisadi fəaliyyət növü** | |
| | Qiymətləndirmə 3 nömrəli əlavəyə uyğun aparılır | |
| 6 | **Sahibkarlıq subyektinin kateqoriyası** | |
| | Kiçik | **10** |
| | Orta | **6** |
| | İri | **2** |
| 7 | **Vergi öhdəlikləri (gecikdirilmiş)** | |
| | Var | **0** |
| | Yoxdur | **10** |
| 8 | **Məcburi ayırmalar üzrə öhdəliklər (gecikdirilmiş)** | |
| | Var | **0** |
| | Yoxdur | **10** |
| 9 | **Vakant iş yerlərinin sayının ümumi ştat vahidlərinin sayına nisbəti** | |

| | | |
|---|---|---|
| | 16%-20% | **10** |
| | 11-15 % | **8** |
| | 5-10% | **6** |
| | 0-5% | **4** |
| **10** | **Vakant iş yerləri haqqında məlumatları vakansiya bankına yerləşdirmə tarixi** | |
| | <1 ay | **2** |
| | <3 ay | **4** |
| | <6 ay | **6** |
| | <9 ay | **8** |
| | <12 ay | **10** |

*5 nömrəli əlavə*

**Sosial iş yerlərinə göndəriş verilməsi üçün işaxtaran və işsiz şəxslərin seçilməsi üzrə meyralar**

(qiymətləndirmə əmsalları ilə birgə)

| Sıra N-si | 1. Proqram üzrə uyğunluq | | | | | |
|---|---|---|---|---|---|---|
| **Fərdi meyarlar** | | | | | | |
| **1** | Yaşa görə | 15-19 | 20-24 | 25-29 | 55-65 | 30-54 |
| | | **10** | **8** | **6** | **4** | **2** |
| **2** | Cinsi | qadın | kişi | | | |
| | | **6** | **4** | | | |
| **3** | Ailə vəziyyəti | Evli | Subay | | | |
| | | **10** | **5** | | | |
| **4** | MAS-da qeydiyyata alınma tarixi | > 24 ay | < 24 ay | < 18 ay | < 12ay | < 6 ay |
| | | **10** | **8** | **6** | **4** | **2** |
| **Aztəminatlılıq meyarları** | | | | | | |
| **5** | Ailə üzvlərinin sayı | 6+ | 5-6 | 3-4 | 2 | 0 |
| | | **10** | **8** | **6** | **4** | **2** |
| **6** | Ailənin ümumi gəliri | 0 | 191-380 | 381-760 | 761-1140 | 1140+ |
| | | **10** | **8** | **6** | **4** | **2** |
| **Dövlət qarşısında xidmətlərə (müharibə əlilləri və ya onlara bərabər tutulanlar) görə əliliiyin olması meyarı** | | | | | | |
| **7** | Əlillik | | | | | |
| | 1-ci qrup | **10** | | | | |
| | 2-ci qrup | **8** | | | | |
| | 3-cü qrup | **6** | | | | |
| **Ümumi səbəblərə görə əlilliyin olması meyarı** | | | | | | |
| **8** | Əlillik | | | | | |
| | 1-ci qrup | **5** | | | | |
| | 2-ci qrup | **3** | | | | |
| | 3-cü qrup | **1** | | | | |
| **Adaptasiya ehtiyacı meyarı** | | | | | | |
| **9** | Cəzaçəkmə yerlərindən azad edilmiş şəxs | Bəli | Xeyr | | | |
| | | **10** | **0** | | | |
| **Təhsil meyarı** | | | | | | |
| **10** | Təhsilin səviyyələri | Ali | Orta ixtisas | Peşə | Tam orta | Ümumi orta |
| | | **10** | **8** | **6** | **4** | **6** |
| **11** | Peşə (ixtisas) üzrə sertifikatlar | Var | Yoxdur | | | |
| | | **10** | **0** | | | |
| **12** | Digər sertifikatlar | Var | Yoxdur | | | |
| | | **10** | **0** | | | |
| **2. İşəgötürən (iş) üçün uyğunluq** | | | | | | |
| **Peşə meyarları** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **13** | 3 nömrəli əlavəyə uyğun qiymətləndirilir | | | | | |
| | **Əmək fəaliyyəti üzrə meyarlar** | | | | | |
| **14** | Ümümi əmək stajı | 8+ il | < 8 il | < 6 il | < 4 il | < 2 il |
| | | **10** | **8** | **6** | **4** | **2** |
| **15** | İxtisas üzrə əmək stajı | 7+ il | < 7 il | < 5 il | < 3 il | < 1 il |
| | | **10** | **8** | **6** | **4** | **2** |
| **16** | Çalışdığı son vəzifə | Yardımçı vəzifə | İcraçı vəzifə | Rəhbər vəzifə | | |
| | | **10** | **8** | **6** | | |
| **17** | Aldığı son əmək haqqı məbləği | 0-250 | 250-400 | 401-600 | 600 -800 | 800-1000 |
| | | **6** | **8** | **10** | **6** | **3** |
| **18** | İşdən çıxma səbəbi | | | | | |
| | Müəssisə ləğv edildikdə | **10** | | | | |
| | İşçilərin sayı və ya ştatları ixtisar edildikdə | **8** | | | | |
| | Əmək müqaviləsinin müddəti bitdikdə | **6** | | | | |
| | Öz təşəbbüsü ilə | **4** | | | | |
| | İşəgötürənin təşəbbüsü ilə | **2** | | | | |